# İSMAYILOV İLQAR SƏDİ OĞLU



İlqar İsmayılov 29 mart 1959-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1966-cı ildə Bakının Nərimanov rayonundakı 45 saylı orta məktəbə daxil olmuş və buranı bitirmişdir. 1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. 1981-ci ildə institutu bitirmiş, həmin il həqiqi hərbi xidməti Bakı Ordu İdman Klubunda yerinə yetirmişdir. 1986-cı ilə qədər "Dinamo" İdman Klubunda məşqçi işləmiş, sonralar leytenant rütbəsi ilə DİN-nin Sabunçu rayon Daxili İşlər Şöbəsində əməliyyat müvəkkili vəzifəsində çalışmışdır. 1991-ci ilin dekabrından başlayaraq döyüş bölgələrinə ezam olunmuşdur. İlqar İsmayılov Şuşanın Malıbəyli, Meşəli kəndlərində və Ağdam rayonunun ərazilərində gedən döyüşlərdə iştirak etmişdir. Məhz onun qəhrəmanlığı və şücaəti sayəsində ermənilər tərəfində vuruşan bir neçə xarici ölkə vətəndaşı girov götürülmüşdü. Onun rəhbərliyi ilə 128 nəfər döyüşçümüz Mazutlu kəndi yaxınlığındakı Qızartı yüksəkliyini erməni işğalçılarından təmizləmişdir. İgid komandir İlqar İsmayılov 1992-ci ilin oktyabr ayının 1-də Qızartı yüksəkliyi uğrunda gedən döyüşdə ermənilərin çoxlu sayda canlı qüvvəsini məhv etmiş və özü də qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə kapitan İsmayılov İlqar Sədi oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır, 45 saylı orta məktəbin önündə büstü qoyulmuşdur.